# TARİX DƏRSLƏRİNDƏ PORTRET VƏ KARİKATURALARDAN İSTİFADƏ

**Aytən Musayeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: ayten_2018@list.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* T.M. İsayeva,
*dos.* P. Səfərov

***Açar sözlər:*** *portret, karikatura, tarix dərsliyi, tarixi xadimlər*
***Key words:*** *portrait, caricature, history textbook, historical figures*
***Ключевые слова:*** *портрет, карикатуры, учебник по истории, исторические деятели*

Tarix dərslərində əyani vasitələrdən istifadə xüsusi yer tutur və onun mühüm əhəmiyyəti vardır. Tarix dərslərində ən çox istifadə olunan əyani vasitələrdən biri də portretlərdir ki, onlar tədris şəkillərinin bir növü kimi çıxış edirlər. Portretlərə tarixi xadimləri səciyyələndirmək üçün müraciət edirlər. Portret hər şeydən əvvəl tarixi xadimin obrazını konkretləşdirir, onu şagirdin şüuruna yaxınlaşdırır.

Tarixi xadimin simasındakı fərdi əlamətlər, yəni onun üz cizgiləri, göz rəngi təsadüfidir və tarixi hadisənin gedişini bizə izah edə bilməz. Bədii portretdə dövrün əlamətləri və xüsusiyyətləri demək olar ki, həmişə öz əksini tapır. Bir qayda olaraq portretlər tarixidir. Belə ki, tarixi portret böyük idraki əhəmiyyətə malik olaraq məktəbliləri bəhs edilən dövrün insanlarının siması ilə tanış edir, dövrün səciyyəvi xüsusiyyətlərini hiss etməyə kömək edir.

XIX əsrin əvvəllərində rus yazıçılarının, O. Kiprenskinin fırçasından çıxmış portretlərin də şagirdləri portret sənətində romantizm ilə tanış etmək olar. “Kiprenski Puşkini dalğın baxışlarla, əlləri çarpazlanmış halda təsvir etmişdir. Böyük yun şal çiynindən asılmışdı. Nazik barmaqları şairin aristokrat mühitə mənsub olduğunu xatırladır. Onun arxasında şairin yaradıcılığının simvolu olan Mizonun Tunc fiquru görünür” (8, 222).

Portretlərdən də tədris şəkilləri kimi dərsin müxtəlif yerlərində istifadə oluna bilər. Bəzən portretlər sujetli olur. Bu zaman şərh gedişində portretin əsas mahiyyəti açıqlanaraq hissələri aydın edilməlidir. Şərh prosesində portretin sifətindən, üz cizgilərindən faktlar gətirərək mahiyyətini açmaq lazımdır. Məs: IV İvan qəzəbli və s. (7, 8).

Tarix dərslərində portretlərin bir sıra növlərindən istifadə olunur. Tarixçi metodist A. Vagin tarixi portretlərin bölgüsünü aşağıdakı kimi verir:

1. Müəyyən şəxsiyyətin həyat və fəaliyyəti üçün xarakterik olan sujet və məişət kompozisiyasına daxil edilmiş portret təsviri, yəni sujet portretləri. Məs: V.İ. Surikovun “Rus qoşunlarının Alp dağlarından aşması”, “Tussen-Luvertur və onun ordusunun əsgərləri”, “Kral Marks fəhlələr içərisində” şəkilləri. Sujet portretlərinin – şəkillərinin əksəriyyəti çox sonrakı dövrlərin rəssamları tərəfindən sənəd materiallarına əsasən yaradılmış və tarixi rəssamlıq əsərlərinə aiddir (8, 222).

Sujet portretlərinə o zaman müraciət edirik ki, müəyyən bir şəxsiyyətin həyat və fəaliyyətinin müəyyən anlarını şərh edirik. Portretin bu növündən həm aşağı, həm də yuxarı siniflərdə istifadə edilir.

2. Tarixi portretlərin ikinci növü qrup portretləridir. Portretlərin bu növündən bəhs edilən dövrün ictimai münasibətlərini açıb göstərmək üçün istifadə edilə bilər. Qrup portreti fərdi portretdən daha çox əyani surətdə xarakteristika verməyə kömək edir. Bu və ya başqa dövrdə xalq kütlələrinin əyani və canlı xarakteristikasını verməyə kömək edir. Qrup portretlərinə nümunə olaraq biz XVIII əsr Fransa burjua inqilabı zamanı fransız respublikaçı generalların portretlərini və ya II Dünya Müharibəsi gedişində SSRİ-dəki 1941-1945-ci illərdə sovet qoşunları komandanlarının, partiya və hökumət rəhbərlərinin qrup portretlərini göstərə bilərik.

3. Tarixi portretlərin üçüncü növü qəhrəman portretləridir. Əgər müəllim tarixi şəxsiyyətin ictimai və dövlət rolunu xüsusi vurğulamağı qarşısına vəzifə qoyursa, tarixi xadimin obrazını zahiri simvollarda (xalq kütləsi əhatəsində olan tribunalda, general lentası, feldmarşal əsası və s) göstərən portreti cəlb edir. Bunları şərti olaraq qəhrəman portret adlandırırlar. Buna misal olaraq biz rəssam Daunun çəkdiyi M.İ. Kutuzovun portretini göstərə bilərik. Bu tip portretlərə öyrədən tarixi xadimin tarixdəki rolunu qiymətləndirmək (dəyərləndirmək) üçün müraciət edir.

4. İntim realist portret və ya fırça ilə verilən xarakteristika. Müəllim dərs prosesində tarixi şəxsiyyətin daxilini açıb göstərmək, ona şəxsiyyət kimi xarakteristika vermək istədikdə köməyinə intim realist portret, digər adı ilə desək fırça ilə verilən xarakteristika çatır. Buna misal olaraq biz rəssam Kramskoyun çəkdiyi "Xəstə N. A. Nekrasov"u göstərə bilərik.

Aşağı sinif şagirdlərindən fərqli olaraq yuxarı sinif şagirdlərinə portret üzrə müstəqil təsvir, kiçik məlumat hazırlamaq üçün ev tapşırığı vermək məqsədəuyğundur. Həm də onların qarşısında idrakı vəzifənin müxtəlif variantları qoyulmalıdır: tarixi şəxsiyyətin xarakteristikasını vermək, onun fəaliyyətini səciyyələndirmək, tarixi roluna qiymət vermək, portreti bəhs edilən dövrün incəsənət əsəri kimi təhlil etmək və s.

Tarix dərslərində karikatura və plakatlardan istifadə edilməsi də mənimsəməyə əsaslı şəkildə kömək edir. Bunun üçün dərsdə Əzimzadənin "Molla Nəsrəddin" jurnalına, Sabirin "Hop-hopnamə"sinə çəkdiyi karikaturalardan, Sabirin şeiri əsasında yubiley münasibəti ilə çəkilmiş "Sabir demişkən" plakatından istifadə edilməsi lazımdır (7, 9).

Şagirdlərin karikatura ilə ilk tanışlığı V sinifdən başlayır. ("Molla Nəsrəddin" jurnalındakı karikaturalar). Karikaturanı təhlil edərkən bir neçə məsələyə aydınlıq gətirmək lazımdır: Karikaturada kim və ya nə təsvir edilmişdir? Karikaturanın ümumi ideyası nədən ibarətdir? Karikatura hansı təbəqənin (partiyanın) baxışlarını ifadə edir? Karikatura ictimai həyatda hansı rol oynayır və hazırda oynamaqdadır? (2, 268).

Karikatura özünü 3 formada göstərir:

- ✓ Kəskin formada
- ✓ Süjetli formada
- ✓ Müşahidəli formada

Karikatura şagirdlərə faktları, tarixi şəxsiyyətləri və ictimai qrupların xarakteristikasını verməkdə köməklik göstərir.

Tarixçi metodist A. Vagin karikaturanın bölgüsünü aşağıdakı kimi verir:

- ✓ İllüstrasiyalı karikatura
- ✓ Xarakteristika karikatura

İllüstrasiyalı karikatura hadisələri əyani şəkildə şagirdlərə çatdırdığı üçün bunda izaha ehtiyac yoxdur.

Xarakteristika karikaturanın əsas funksiyası hadisələrin mahiyyətini açmaqdan ibarətdir. Karikaturanın bu forması 2 hissədən ibarətdir:

- o Portret karikaturası
- o Simvolik karikatura

Karikaturanın təsnifatını Donskoy aşağıdakı kimi verib:

- ✓ İctimai-siyasi hadisələrlə bağlı karikatura
- ✓ İqtisadi məsələlərlə bağlı karikatura
- ✓ Mədəni məsələlərlə bağlı karikatura

Ümumiyyətlə karikatura ilə işləyərkən onu sonda nəticə ilə, xarakteristika ilə, yekunlaşdırıcı siyasi təriflə sona çatdırmaq məqsədəuyğundur. Karikatura ilə işləyərkən şagirdlər aşağıdakı məsələləri bilməlidirlər:

- ➢ Konkret hadisənin dəqiq izahını
- ➢ Müəllifin fikrini
- ➢ Müəllifin hadisələrə münasibətini

Azərbaycan tarixində ən məşhur karikatura "Molla Nəsrəddin" jurnalında olanlardır ki, onların müəllifi Əzim Əzimzadədir. Karikatura mütləq şəkildə siyasi nəticə ilə yekunlaşmalıdır. Karikatura şagirdləri güldürməli, onları düşündürməlidir. Bəzən karikaturanın ölçüsü çox kiçik olduğundan şagirdlər onları görə bilmir. Bu zaman müəllim 2 yoldan istifadə edir:

- ➢ Karikaturanı şagirdlərə ağ cızma vərəqdə çəkməyi tapşırır.
- ➢ Tənəffüsdə karikaturanı lövhədən asaraq şagirdlərin daha yaxşı görməsini təmin edir.

Göründüyü kimi tarix dərslərində portret və karikaturalardan istifadənin mühüm tərbiyəvi əhəmiyyəti vardır. Karikatura şagirdləri güldürməklə yanaşı onları düşünməyə, təfəkkürünü inkişaf etdirməyə vadar edir.

***Dərs nümunəsi: V sinif Azərbaycan tarixi***

- ➢ ***Mövzu:*** "Molla Nəsrəddin".
- ➢ ***Standart:***

1.1.2. Sadə xronoloji məsələləri həll edir.

4.1.2. Mənbələrə əsasən şəxsiyyətlər haqqında təqdimatlar hazırlayır.

5.1.2. Milli-mənəvi dəyərləri fərqləndirir.

➢ ***Məqsəd:***

1. "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı xronoloji məsələləri həll edir.

2. Mənbələrə əsasən Cəlil Məmmədquluzadə haqqında təqdimat hazırlayır.

3. "Molla Nəsrəddin" jurnalının milli-mənəvi dəyərini qiymətləndirir.

➢ ***Iş forması:*** qrup işi.

➢ ***Iş üsulu:*** beyin həmləsi, mühazirə, müzakirə.

➢ ***Resurslar:*** dərslik, iş vərəqləri, marker, şəkillər, İKT, slayd, mühazirə mətni.

➢ ***Inteqrasiya:*** Ə, İnf.

***Dərsin gedişi:***

➢ ***Motivasiya:*** stolun üzərində olan bir neçə jurnal şagirdlərə göstərilərək soruşulur:

- Sizcə, bu nəşrlər nə üçün lazımdır?

Şagirdlər öz fikir və təkliflərini söyləyirlər. Cavablar dinlənildikdən sonra mühazirə mətni izahlı şəkildə oxunaraq əlavə məlumatlar verilir.

➢ ***Tədqiqatın aparılması:*** Tədqiqat aparmaq üçün sinif qruplara bölünür, hər bir qrupa ad verilir və iş vərəqləri paylanılır. Və tədqiqat sualı səsləndirilir.

1-ci qrup: "Cəlil"

2-ci qrup: "Sabir"

3-cü qrup: "Əzim"

4-cü qrup: "Nəsrəddin"

***Tədqiqat sualı:*** "Molla Nəsrəddin" jurnalının milli-mənəvi dəyəri nədədir?

Hər bir qrupa tədqiqat sualı verilir:

"Cəlil" qrupu - "Molla Nəsrəddin" jurnalı hansı problemləri qaldırırdı? izah edin.

"Sabir" qrupu - "Molla Nəsrəddin" jurnalı ilə "Əkinçi" qəzeti hansı amala xidmət edirdi? aydınlaşdırın.

"Əzim" qrupu - Jurnalın üz qabığındakı karikaturanın mahiyyətini izah və təsvir edin.

"Nəsrəddin" qrupu - "Güldürməklə düşündürmək" ifadəsini necə başa düşürsünüz? izah edin.

➢ ***Məlumatın mübadiləsi:*** Müəyyən edilmiş zaman kəsiyində şagirdlər cavabları hazırlayır və təqdim edirlər.

➢ ***Məlumatın müzakirəsi:*** Cavablar diqqətlə dinlənilir. Əgər varsa əlavələr olunur və müzakirə edilir.

➢ ***Nəticə və ümumiləşdirmə:*** Nəticədə şagirdlər "Molla Nəsrəddin" jurnalının nəşri ilə bağlı xronoloji məsələləri həll edir, mənbələrə əsasən Cəlil Məmmədquluzadə haqqında təqdimat hazırlayır, "Molla Nəsrəddin" jurnalının milli-mənəvi dəyərini qiymətləndirir.

➢ ***Yaradıcı tətbiqetmə və ya ev tapşırığı:*** "Molla Nəsrəddinçilər" adlı kiçikhəcmli esse yazın.

➢ ***Qiymətləndirmə:***

| MEYARLAR<br>QRUPLAR | TƏQDİMETMƏ | VAXTA QƏNAƏT | TAPŞIRIĞIN DÜZGÜN YERİNƏ YETİRİLMƏSİ | ƏMƏKDAŞLIQ | ÜMUMİ NƏTİCƏ |
|---|---|---|---|---|---|
| CƏLİL | | | | | |
| SABİR | | | | | |
| ƏZİM | | | | | |
| NƏSRƏDDİN | | | | | |

**Problemin aktuallığı** tarixin tədrisində portret və karikaturalardan səmərəli şəkildə istifadə edilməsidir.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, tarix dərslərində portret və karikaturanın səmərəli istifadəsi müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, portret və karikaturalardan tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

## ƏDƏBİYYAT

1. Cəbrayılov İ. H. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006.
2. Əmirov M. M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı: ADPU-nun mətbəəsi, 2014.
3. İsayeva T.M. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisində mətn üzərində işin təşkili. Bakı, 2009.
4. Paşayev T.S. Tarixin tədrisi: tarixilik və müasirlik. Bakı: Nurlan, 2006.
5. Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf, 2009.
6. Zahidov Ə. Tarixin tədrisi metodikası. Gəncə: GDPİ, 1996.
7. Zahidov Ə. Tarix təlimində əyanilik. Gəncə: GZMTİ, 1992.
8. Vagin A.A. Orta məktəbdə tarixin tədrisi metodikası. Bakı: Maarif, 1973.

**A. Musayeva**

## HISTORY LESSON IN THE USE OF PORTRAITS AND CARICATURES

***SUMMARY***

The article was based on relevance of the topic. Portraits and caricatures to a variety from the point of view of clarifying the essence. It was commenting on the nature and content of. Portraits and caricatures detailed explanation was given for use in lessons history. The practical and theoretical significance of portrait and caricature is emphasized. The scientific novelty of the topic is justified.

**А. Мусаева**

## ИСПОЛЬЗОВАНИЕ ПОРТРЕТОВ И КАРИКАТУР НА УРОКАХ ИСТОРИИ

***РЕЗЮМЕ***

Подтверждена актуальность темы в статье. Портреты и карикатуры были уточнены с разных точек зрения. Их суть и содержание были истолкованы. Подробная история использования портретов и карикатур. Практическое и теоретическое значение портрета и карикатура. Обоснована научная новизна статьи.

**Redaksiyaya daxil olub:** 16.01.2018